Rəsmi dövlət qəzeti

AZƏR

AZƏRBAYCAN RESPUBLİKAS

№ 116 (7260) ÇƏRŞƏNBƏ, 1 iyun 2016-cı il

Qəzetin əsası 1918-ci ildə qoyulmuşdu





# ABŞ Azərbaycanı "enerji lideri" elan etdi

## *Barak Obama Azərbaycanla birgə fəaliyyətdən şərəf duyduqlarını və ikitərəfli əlaqələrin daha da möhkəmləndirilməsinin vacibliyini vurğuladı*

Azərbaycanın heç vaxt indiki qədər güclü olmaması tarixin danılmaz həqiqətidir. Müsəlman Şərqinin ilk demokratik respublikasının yaranmasının 98-ci ildönümü ərəfəsində bu faktın artıq beynəlxalq miqyasda etiraf olunması isə əlamətdar məqamdır. Ölkə rəhbərinə ünvanlanan təbriklərdə onun xarici həmkarları məmləkətimizin mövcud inkişaf göstəricilərini vurğulamaqla yanaşı, Azərbaycanın nüfuzunun planetar səviyyədə artmasını və qlobal iqtisadi-siyasi-enerji proseslərində əsas söz sahiblərindən birinə çevrilməsini də vurğulayırlar. Bu xüsusda Amerika Birləşmiş Ştatlarının Prezidenti Barak Obamanın məktubu xüsusi əhəmiyyət kəsb edir.

### ABŞ-ın yeni Azərbaycan siyasətinin əsas məramı: Prezident İlham Əliyevə tam dəstək

ABŞ dünyanın ən əsas iqtisadi nəhəngi, hərbi gücü, siyasi monopolistidir, yəni şəriksiz fövqəldövlətdir. Onun maraqları artıq Yer planeti ilə məhdudlaşmır, qalaktikanı təsir dairəsinə alır. Dünya siyasətini müəyyənləşdirir. İqtisadi-maliyyə proseslərinin gedişini birbaşa nəzarəti altında həyata keçirir, ən ucqarlarda baş verən münaqişələr belə onun diktəsi ilə ya başlayır, ya da bitir. Ağ evin "qara siyahı"sına düşmək o ölkənin və xalqın müqəddəratı üçün böyük təhlükə sayılır.

İstisnasız olaraq hər bir dövlət rəsmi Vaşinqtonla hesablaşmağa çalışır. Amma bu sırada çox az dövlət var ki, onlarla münasibətlər "hökm verən və icraçı" müstəvisində yox, tərəfdaşlıq və maraqların uzlaşdırılması kontekstində bərqərar olub. Azərbaycan da bu ölkələr cərgəsindədir. Yəni respublikamız ABŞ-ı dünyanın ən qüdrətli ölkəsi kimi tanıyır, onunla münaisbətlərə böyük önəm verir. Fəqət öz müstəqil siyasətinin prioritetliyini əməkdaşlıqda istinad nöqtəsi kimi qəbul edir və Ağ evin maraqlarının Azərbaycanın müstəqil mövqeyi ilə uzlaşdırılmasına çalışır. Və buna nail olur!

Son dövrlərdə münasibətlərdə müəyyən gərginliyin olması inkaredilməz idi. Lakin Prezident İlham Əliyevin mart ayında Nüvə Təhlükəsizliyi Sammitində iştirak üçün ABŞ-a səfəri müddətində birbaşa Ağ evin istəyi və dəvəti ilə gerçəkləşən yüksək səviyyəli rəsmi təmaslar əməkdaşlığı yeni inkişaf vektoruna çıxardı. ABŞ ölkəmizi yalnız Qafqaz bölgəsində deyil, ümumiyyətlə Avratlantika və Yaxın Şərq regionunda əsas tərəfdaşlarından biri kimi tanıdığını, Prezident İlham Əliyevin liderliyini isə tam dəstəklədiyini yeni Azərbaycan siyasətinin əsas məramı kimi elan etdi.

ABŞ rəsmiləri adətən kənar ölkələrin siyasəti və onların rəhbərləri barədə xoş sözlər söyləməyə vərdiş etməyiblər. Lakin Ağ evin ən yüksək mənsəbli məmurlarının Azərbaycan və Prezident İlham Əliyev barədə son üç ay ərzində davamlı olaraq səsləndirdikləri müsbət fikirlər xüsusi diqqət çəkir. Məsələn, ABŞ-ın vitse-prezidenti Co Bayden Ağ evin rəsmi Bakı ilə güclü və uzunmüddətli əməkdaşlığın daha da inkişaf etdirilməsində maraqlı olduğunu xüsusi vurğulayaraq bildirib ki: "Prezident İlham Əliyev ilə görüşlərə böyük əhəmiyyət veririk və bu görüşlərin Azərbaycan ilə ABŞ arasında əməkdaşlığın daha da genişlənməsinə, əlaqələrin yeni səviyyəyə qaldırılmasına xidmət etdiyini bilirik... ABŞ Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini qətiyyətlə dəstəkləyir, bu, Birləşmiş Ştatlar üçün böyük əhəmiyyət daşıyır".

Yaxud ABŞ-ın dövlət katibi Con Kerri Azərbaycan Prezidentinin "Cənub qaz dəhlizi" layihəsinə rəhbərlik missiyasını yüksək qiymətləndirərək bu məsələni diqqət mərkəzində saxlamasına və regional təhlükəsizliklə bağlı səylərinə görə ölkə rəhbərimizə təşəkkür etmişdi. Dövlət katibinin Prezident İlham Əliyevin fəaliyyətindən bəhs edərkən söylədiyi, "Bu, Avropanın uzunmüddətli strateji maraqları naminə və səmimi söyləsəm, vacib olan enerji mənbələrinin şaxələndirilməsinə cəhd göstərmək üçün atılmış çox ciddi bir addımdır" bəyanatı isə Azərbaycan liderinin geosiyasi müstəvidə yürütdüyü təşəbbüslərdən ABŞ-ın məmnun qalmasına dəlalət edirdi.

Həmçinin Azərbaycan Prezidenti ilə bir müddət öncə keçirdikləri görüşdə Amerika Ticarət Palatasının üzvləri adından danışan "Ernst and Young" şirkətinin nümayəndəsi öz ölkəsinin biznes dairələrinin mövqeyini belə ifadə etmişdi: "İslahatların həyata keçirilməsində Prezident İlham Əliyevin rəhbərliyini çox yüksək dəyərləndiririk. Həm yerli, həm də xarici şirkətlər Sizin yanınızdadır. Biz Sizi tam dəstəkləyirik və Sizi bu islahatlardan geri çəkilməməyin qarantı kimi görürük. Sizə dəstək olmaq bizim hamımız üçün böyük şərəfdir".

### ABŞ Azərbaycandakı islahatları təqdir edir

Bu silsilənin davamı, bəlkə də ən əhəmiyyətli məqamı isə bir neçə gün öncə Amerika Birləşmiş Ştatlarının Prezidenti Barak Obamanın azərbaycanlı həmkarına ünvanladığı məktub oldu. Ən qüdrətli dövlətin rəhbəri tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin "dünyada əhalisinin əksəriyyəti müsəlman olan ilk dünyəvi demokratik dövlət" kimi tanınması hər birimizdə iftixar hissi yaradan hal idi.

Lakin Barak Obama yalnız şərəfli tariximizin etirafı ilə yox, həm də müasir Azərbaycanın beynəlxalq nüfuzunu qeyd etməklə də bizləri qürurlandırdı. Respublikamızın 25 il ərzində Avropanın enerji şaxələndirilməsini və təhlükəsizliyini dəstəkləməsinin xatırlanması nə qədər əlamətdar idisə, ABŞ tərəfindən Azərbaycanın "enerji lideri" elan olunması ondan dəfələrlə artıq əlahiddəlik daşıyırdı. Göründüyü kimi, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən enerji siyasəti artıq ölkəmizi bu istiqamətdə hamı tərəfindən qəbul olunan lider kimi tanıdıb.

Azərbaycanın beynəlxalq terrorizmə qarşı mübarizədə nümayiş etdirdiyi qətiyyət və ardıcıllıq ölkəmizin tərəfdaşlıq etibarını artıran əsas amillərdəndir. Bu mövzu ABŞ Prezidentinin azərbaycanlı həmkarına ünvanladığı məktubda da vurğulandı. Ölkəmizlə təhlükəsizlik sahəsində əməkdaşlıq yüksək qiymətləndirilməklə yanaşı, NATO-nun Əfqanıstanda Qətiyyətli Dəstək Missiyasında birgə xidmətə böyük önəm verildi. Barak Obama Azərbaycanla, onun lideri İlham Əliyevlə əməkdaşlıqdan şərəf duyduqlarını bəyan etdi.

Digər nəzərəçarpan məqam isə Azərbaycanın bütün vətəndaşları üçün təhlükəsizlik, firavanlıq və ifadə azadlığının daha da möhkəmləndirməsi mövzusu idi. Ölkəmizin ictimai, sosial, hüquqi və siyasi istiqamətdə apardığı islahatlar, bu sahədəki nailiyyətlər ABŞ tərəfindən təqdir olundu.

ABŞ son vaxtlar Dağlıq Qarabağ münaqişəsinin nizamlanma prosesində də fəallığını artırıb. Azərbaycan və Ermənistan prezidentlərinin Vyana görüşünün əsas təşəbbüskarı olan dövlət katibi C.Kerrinin timsalında danışıqlarda bilavasitə iştirak edən rəsmi Vaşinqton Dağlıq Qarabağı birmənalı olaraq Azərbaycanın torpağı hesab edir. Eyni zamanda, problemin ölkəmizin ərazi bütövlyünün qorunması prinsipi əsasında həlli variantına sadiqliyini dəfələrlə bildirib. Barak Obama məlum məktubunda respublikamızın əmin-amanlıq, sabitlik şəraitində yaşamasını vacib sayır və münaqişənin sülh yolu ilə həlli istiqamətində Azərbaycan ilə işləməyə davam edəcəklərini vurğulayır.

Azərbaycanın və Birləşmiş Ştatların xalqları sıx əlaqələrə malik olduğunu qeyd edən B.Obamanın "Biz mədəni, siyasi və iqtisadi əlaqələrimizin daha da möhkəmləndirilməsini arzu edirik" fikri isə ikitərəfli münasibətlərin böyük perspektivlərə rəvac verdiyinə əminlik yaradır.

Ağ ev rəsmi Bakı ilə güclü və uzunmüddətli əməkdaşlığın inkişaf etdirilməsində maraqlı olduğunu davamlı olaraq vurğulayır. Görünən odur ki, ABŞ Azərbaycanı daim dəyişən geosiyasi proseslərdə dəyişməz tərəfdaş kimi qəbul edir. Xüsusi diqqətçəkən məsələ isə Azərbaycanda gedən iqtisadi islahatların və iqtisadiyyatın şaxələndirilməsi tədbirlərinin, həmçinin demokratikləşmə prosesinin Vaşinqtonda maraqla izlənildiyi və dəstəklənməsidir. Antiazərbaycançı şəbəkənin bütün iddialarına rəğmən, hər dəfə sübut olunur ki, ABŞ həm Azərbaycanı özünün önəmli tərəfdaşı sayır və onu itirmək niyyətində deyil, həm də Prezident İlham Əliyevin fəaliyyətini, onun geosiyasi təşəbbüslərini hər zamankı kimi birmənalı müdafiə edir.

*Bu isə Azərbaycanın müstəqil siyasətinin növbəti uğurudur...*

**İxtiyar HÜSEYNLİ,**
***"Azərbaycan"***